Milli Kültür Araştırmaları Dergisi (MİKAD) / Cilt 8 - Sayı 1

**Sorumlu Yazar:** Okt. Aynura MEMMEDOVA, Şərqşünaslıq İnstitutu, aynuramammadova07@gmail.com

**ORCID ID:** 0000-0003-3574-5822

**Atıf:** Memmedova, A. (2024). Doğu ve Batı Kültürel Gelişiminin Özellikleri, Milli Kültür Araştırmaları Dergisi, 8 (1), s. 22-46.

**Gönderim ve Kabul Tarihi:** 1 Mart 2024 / 27 Mayıs 2024

Araştırma Makalesi

ISSN: 2587-1331

DOI: 10.55774/mikad.1445538

https://dergipark.org.tr/tr/pub/mikad

---

# ŞƏRQ VƏ QƏRBİN MƏDƏNİ İNKİŞAF XÜSUSİYYƏTLƏRİ

# DOĞU VE BATI KÜLTÜREL GELİŞİMİNİN ÖZELLİKLERİ

**Öz**

Batı ve Doğu düşünce tarzları, benzerlikleri ve farklılıkları, gelişim kalıpları, kültürü ve şiiri kendilerine has özellikleri ve gelişim dinamikleri nedeniyle birbirlerinden farklılık göstermektedir. Batı ile Doğu arasında yeterince benzerlik ve farklılık vardı. Sunulan makalenin temel amacı, 20. yüzyılın 30'lu yıllarından itibaren Doğu ile Batı arasında var olan farklı ve benzer noktaları tespit etme yönünü incelemek, Batı ve Doğu kültürlerini Doğu ve Batı kültürünün iki farklı ve önemli parçası olarak göstermektir.

Benzer yönler antik çağ, Yunan biliminin yeniden canlanması, kültür ve toplumun sosyo-ekonomik gelişimi ile tanımlanmaktadır. Doğu ile Batı arasındaki benzerlikleri ve farklılıkları görebilmek için öncelikle Doğu ile Batı'nın tarihsel süreçlerinin niteliğini netleştirmek gerekir. Bu konunun en alakalı faktörlerinden biri Batı ile Doğu arasında paralellikler kurmak, aynı zamanda ayrı bir düşünce biçiminin kalkınma yasalarını takip etmek ve bu gelişimin bölgelere ilişkin özelliklerini incelemektir. En önemli konular arasında aşağıdaki hususlara bakmak gerekir:

-Doğu ve Batı düşüncesine göre ortak özellikleri ve bunların ortaya çıkış nedenlerini yorumlayabilmek

- Doğu ve Batı düşünce tarzları arasındaki benzerlik ve farklılıkların incelenmesi:

- Doğulu ve Batılı düşünürlerin düşünce biçimlerinin ve edebi-sanatsal ilişkilerinin birliği

**Anahtar Sözcüklər:**: Batı, Doğu, düşünce, kültür, edebi-sanatsal, benzer, düşünür

## CHARACTERISTICS OF EAST AND WEST CULTURAL DEVELOPMENT


**Abstract**

Western and Eastern ways of thinking, similarities and differences, patterns of development, culture and poetry differ from each other due to their unique characteristics and development dynamics. There were enough similarities and differences between the West and the East. The main goal of the presented article is to show Western and Eastern cultures as two different and important parts of world culture in a unified picture by examining the direction of determining the different and similar points that exist between the East and the West starting from the 30s of the 20th century. Similar aspects are defined by antiquity, revival of Greek science, socio-economic development of culture and society. In order to see the similarities and differences between the East and the West, it is necessary to first clarify the nature of the historical processes in the East and the West. One of the most relevant factors of this topic is to establish parallels between the West and the East, and at the same time to follow the laws of development of a different way of thinking and to study the regional characteristics of this development. Among the most important topics, the following should be considered:

- To be able to interpret the common features and the reasons for their emergence according to Eastern and Western thought

- Study of the similarities and differences between Eastern and Western ways of thinking

-Unity of Eastern and Western thinkers' ways of thinking and literary-artistic relations



**Keywords**: West, East, thought, culture, literary-artistic, similar, thinkers


**GİRİŞ**

Şərq mədəniyyəti formalaşarkən yer üzündə əhali olduqca az idi. Şərqlilər günəş enerjisi ilə bol olan , olduqca gözəl bir ərazidə yaşayırdılar. Meşələr, dağlar, düzlər ov ilə dolu idi və insanın ən mühum sərvəti fiziki gücü idi. Burada insanlar öz münasibətlərini, xarakterlərini, həyat tərzlərini daha çox özlərinə məxsus fiziki güclə muəyyənləşdirirdilər. Şərqlilər daha təbii yolla uzun əsrlər boyu öz mədəniyyətlərini formalaşdırırdılar. Şərq mədəniyyəti təbiətə, torpağa daha yaxındır. Şərq musiqisində, mədəniyyətində, incəsənətində, ədəbiyyatında, rəssamlıgında və adət ənənələrində təbiətdən bəhrələnmə daha güclüdür. Şərq xalqlarının məskunlaşdıgı torpağın potensialı üzərində məskunlaşan insanların rahat yaşaması üçün yetərli olduğundan bu xalqlar tərəqqi və muharibəyə meyilli deyillər. Şərqdə şərqlinin əsas potensialı torpaq və onun altındakı sərvətdir. İnsanlarin bir birinə ehtiyacı azdır. Şərqdə problemin yanından keçməyə üstünlük verilir. Şərq xalqları özlərinin sabahı haqqında yox, bu günü haqqında daha çox düşünürlər. Şərqdə insan haqları və azadlıqları priortret deyildir, çünki insan var olmanin potensiali sayilmır. Çünki , toplumun yaşaması insandan yox, yer altı sərvətdən asılıdır. Şərqli təbiətin ulu gücünə o qədər heyrandir ki, özünü ona təslim edir. Şərqdə cəmiyyətin nüvəsi ailədir və bu qurum qaygı altındadır. Təsadüfü deyildirki , bütün dinlər ilk dəfə məhz Şərqdə yaranmışdır. Qədim Şərq anlayışına nəzər salarkən, aydın olur ki, Qədim Şərq ilk elmi biliklərin vətəni olmuşdur. Misirdə riyaziyyat, həndəsə, türk, astranomiya elmi inkişaf etmiş və digər ölkələrə öz təsirini göstərmişdir. Bu elmlərin meydana gəlməsi gündəlik təlabatdan yaranmış və təcrübədə istifadə edilmişdir. Vaxtı ilə antik ölkələr qədim Şərq mədəniyyətinin müəyyən tərzinə məruz qalmışdılar. "Şərq" antik ədəbiyyatda cografi anlayış kimi işlədilmiş, yeni və ən yeni dövrə " Qədim Şərq" adı altında mədəni –tarixi anlayışa çevrilmiş və tarix elminin müfafiq sahəsini təşkil etmişdilər. Şərq mədəniyyəti, fəlsəfəsi dünya tədqiqatçılarının, mütəfəkkirlərinin, tarixçilərinin nəzər-diqqətini cəlb etmiş, bəzi qərb mütəfəkkirləri bu mədəniyyətə etinasız yanaşssa da , digərləri həmin mədəniyyətin bəşər tarixi üçün mühüm əhəmiyyətə malik oldugunu iddia etmişdirlər.

## 1. Qərb üçün var olmanın potensialı: İnsan sonra torpaq.

Qərb düşüncəsində isə torpaqdan əlavə , insanın yaşaması üçün lazım olan digər əsas potensialı insanın özüdür. O, gücünü bildiyi üçün ona hakim olmağa calışır. Qərbdə cəmiyyətin mərkəzində ailə yox, fərd dayanır. Deməli , Şərqdə torpağın oynadığı rolu , Qərbdə insan oynayır. Hər bir insan ayrılıqda, toplum isə bütövlükdə böyük potensiala malikdir. Özünün qoruma instinkinin təsiri altında, qərblilər sövq təbii olaraq bir birinin qədrini bilərək , milli birlik nümayiş etdirir, biri digərini özünə arxa sayır. Toplum fərdin yaşamasına , fərd isə toplumun güclü olmasına qaygi göstərir. Bu səbəbdən Qərb cəmiyyətləri özlərinin bu günü və sabahı haqqında daim düşünürlər. Qərb insanı problemdən qorxmur, onun üzərinə getməyi bacarır və siyasi aktiv olur. Qərbdə dövlət quruculuğu o istiqamətdə inkişaf edir ki, həm toplum, həm də insan güclü olsun.

Qərblilər isə əksinə coğrafi şəraiti daha kəskin , təbiəti sərt, günəşi az olan ərazilərdə yaşayan və məskunlaşan insanlardır. Qərblinin genində, qan yaddaşında bir qorxulu şərqli obrazı vardır. Qərbdə insanlar cəmiyyət, olkə, dövlət kimi formalaşanda Şərq artıq çoxdan inkişaf etmişdir. Şərq mədəniyyəti formalaşarkən onun üçün ən qüdrətli varlıq günəş idisə, Qərb mədəniyyəti formalaşanda günəşlə onun arasında bir Şərq qüdrəti vardi. Qərbli sərt, az məhsuldar torpaqlarda şərqlinin təhlükəsi altında yaşayırdı. Buna görədə qərblidə şərqliyə qarşı bir qısqanclıq hissi vardı.

Beləliklə, bir zamanlar yer üzü əsasən şərqdən ibarət idi və onun elmi, mədəniyyəti, siyasəti də yalnız şərq boyda, şərq xarakterdə olan bir sistemi idarə etmək ücün formalaşırdı. Şərqdə irəli cixan hər hansı bir xalq bu sistemin potensialı baxımından ön mövqe qazanırdi. Get-gedə formalaşan, insitutlaşan dinlər də bu sistemin mövcudluğunda mühüm rol oynamağa başladılar. Şərq psixologiyasına daha yaxın olan islam dini güclәndikcә müsəlman xalqları daha da ön mövqeyə cıxmağa başladılar. Orta əsrlərdə daha mütəşəkkil çevik olan türklər Şərq mədəniyyətinə ümumiyyətlə, dünya sivilizasiyasına lideri kimi göstərməyə başladı. Şərq artıq hiss etdiki, yer üzü əvvəlki kimi deyil. Onlar yeni yaranmiş qərb sistemini öz təsir dairələrinə salmaq ücün mübarizəyə başladılar.Lakin onlar mübarizəni aparmaq ücün güclü bir potensiala malik deyildilər. Quranın, dünyəvi elmlərin mahiyyətinin lazımınca dərk edilmədiyindən müxtəlif hökmdarların, siyasətcilərin təsiri altında yeni yaranan dini təriqətlər islam mədəniyyətinin harmonik inkişafına mane olurdu. Beləliklə XİV əsrdə elə bir şərait yarandi ki, yer üzünü bir sistem kimi idarə etmək sahəsində bir boşluq yarandi. Yaranmış bu boşlugu doldurmaq üçün gənc qərb mədəniyyəti daha enerjili, potensiallı, həvəsli idi. Beləliklə XV əsrdən başlayaraq qərb mədəniyyətinin inkişafı üçün mühüm tarixi şərait yarandı.

Qərb dünyagörüşü Şərq dünyagörüşü ilə müqayisədə naşı, dəliqanlı, enerjili gənc halındadır. Amma o getdikcə Şərqin təcrübəsindən yararlanmağa möhtac olduğunu hiss etməyə başladı. Şərq ilə birini sevərək ortaya qoyacaqları ortaq mədəniyyət yer üzünü daha doğru yolla inkişaf etməsinə səbəb olacaqdır. Burada Şərq mədəniyyətinin stragediyası , Qərb mədəniyyətinin isə taktikası daha mükəmməldir.Hissi zamanla dünyanın intelektual dərkinin , hissi dərkdən sonra gəlməsi qanunauyğun bir haldir. Və bu bir problem kimi fəlsəfi əhəmiyyət kəsb edən bu iki düşüncə tərzi, mədəniyyət formaları arasındakı münasibətlərin öyrənilməsi daha məqsədəuyğundur.

Şərq və Qərb mədəniyyəti insanın cəmiyyətə və dövlətə münasibətində də fərqlənir. Avropa mədəniyyətində insanın təbii hüquqlu azad şəxsiyyət kimi anlaşılması formalaşıb. Bu ideyaların antik dövrdə başlanan formalaşma prosesi intibah və maarifcilik dövründə tam olaraq başa catıb. Hüquqi dövlət insanın huquq və azadlıqları barədə anlayışlarda məhz Qərb ənənələri cərcivəsində yaranıb. Qərbdən fərqli olaraq Şərqdə hər zaman fərdin maraqları deyil, ailənin, birliyin, dövlətin maraqlarinin vacibliyi qeyd olunur.

Orta əsrlərdə Qərb və Şərq dünyagörüşləri arasında ziddiyətlər getdikcə güclənir, yeri və mövqeyi kimi məsələlərdə bu fərqlər özunu daha da qabarıq göstərirdi. Məhz min illərdir bəşəriyyət bu rəngarəng mədəniyyətlər arasında, bu iki mədəni qütb arasında vurnuxmadadır. Bunlara əsasən Şərq və Qərb mədəniyyəti kəskinləşmişdir. Dünyanın və insanın yaranması, insan və təbiət insanın dünyada qütbləridir. Lakin yenədə qeyd edək ki dünya mədəniyyətinin ilkin mənbəyi, dünya sivilizasiyasının başlangıcı Şərq olmuşdur. Avropa bu fikri heç vaxt qəbul etməmişdir. Bu fikri təsdiqləyən Hegel deyirdi;''Şərq fikrini fəlsəfə tarixindən cıxarmaq lazimdır''. Onun bu fikri Şərq mədəniyyətini inkar etmək, Şərq xalqlarının min illərlə əldə etdiyi mədəni nailliyətlərinin üstündən xətt çəkmək idi.

Lakin bu da bir reallıqdır ki, bu mədəniyyətlər arasında ümumi cəhətlərlə yanaşı fərqli cəhətlər də olmuş onlar indidə bu və ya digər formada da davam edir.Bu hər şeydən əvvəl Qərb rasionalizmi və Şərq əxlaqi etik prinsiplərin dəyişməzliyi ilə bağlıdır. Şərq insanı bu prinsipləri dəyişməz əbədi normalar kimi qəbul edərək yaşatmağı özlərinin mənəviyyat norması kimi qəbul edərək , onlara Şərq anlamına uyğun olaraq əməl etmişdir. Qərbin normal həyat modeli isə orta əsr xiristian Avropasında formalaşmışdır. Nəticədə bu, Qərb insanın birləşməsinə Avropa sivilizasiyasının daha dayanıqlı dini məzmun almasına şərait yaratmışdır. Şərqdə isə bu proses Qərbdən fərqli olaraq daha möhkəm maddi və mənəvi dayaqlara söykənmişdir. Bütün bunlar bir daha göstərdi ki, rasional Qərb emosional Şərqdən doğan işıqlı nurdan, daha yaxşi faydalanaraq öz yaşam tərzlərini qaydaya sala bilmişdir. Beləliklə, Şərq düşüncəsində məqsəd insanın kamilləşməsi , Qərb düşüncəsində isə cəmiyyətin təkminləşdirilməsidir. Beləliklə, yüksək mənəviyyat müfaviq maddi mühüt və sosial reallıqla tamamlanmalı, daha çox dərəcədə praktik həyatı missiyaya malik olmalıdır. Klassik Şərqin yüksək mədəni-mənəvi dəyərləri müasir Qərb rasionalizmi ilə vəhdət halında olmaqla, ilk növbədə müasir insana onun real həyatı problemlərinə xidmət etməlidir. Beləliklə, insanın mənəvi aləminin strukturunda əxlaqi, estetik və intelektual yeri və qarşılıqlı əlaqəsi habelə onların dini hisslə nisbət məsələləri Şərq və Qərb düşüncə tərzləri konteksində geniş araşdırılmışdır.

## 2. Şərqin idealı-kamil insan, Qərbin idealı-kamil cəmiyyətdir. (Ə.Turxan)

Şərq və Qərb arasında olan ortaq, oxşar və fərqli düşüncə tərzləri kifayət qədərdir. Əgər Qərb proqressif, rasional, individual, realist, azadlıqsever kimi xarakterizə olunursa Şərq arxaik, subyektiv, ailə həyatına qapalı, mistik, passiv kimi tanınırdı. Bu əlamətlər artıq bir stereotip kimi XİX əsrin ortalarından ideal mədəniyyət tipləri adlandırılan Qərb və Şərq tiplərində möhkəmlənir. Bu dövrdən etibarən Qərb və Şərq terminləri ədəbiyyatda cografi anlayışlar kimi deyil, bir –birinə əks olan mədəniyyət obrazları kimi istifadə olunur. Orta əsrlər Şərq və Qərb düşüncə tərzində əhəmiyyətli bir dövrdür. Belə ki, qədim ənənənin davam etdiyi digər bölgələrdən fərqli olaraq yeni yaranmış səmavi dinlər- xristianlıq və islam həm Qərbdə, həm də Şərqdə insanların düşüncəsinə, əxlaqına, həyat tərzinə , dünyagörüşünə təsir göstərmiş , fəlsəfi düşüncələrində yeni istiqamətlərin qərarlaşmasına imkan yaratmışdır. Xristian və islam dinlərinin yaranmasında zaman fərqi təqribən 7 əsr olsa da, onların üzərində təşəkkül tapmış həm Qərb həmdə Şərq fəlsəfi düşüncəsinin formalaşmasi və inkişafi arasında müəyyən müşaidələr aparmaq mümkündür. İlk dövr Şərqdə və Qərbdə fərqli zaman kəsiyində hər ikisində, demək olarki eyni inkişaf yolunu müşaidə etmək mümkündür. Daha sonra hər ikisində yeni özünütəsdiq və özünümüdafiə mərhələsi yarandı. Bu həmdə qədim düşüncələrə yeni rəngin qatılmasi və həmdə ehkamlara rasional baxışın yaranması demək idi. İlk dövr həmdə fəlsəfi düşücənin sistemləşməsi həm Şərqdə həm də Qərbdə filosof və mütəfəkkirlər yetişdirəcək fəlsəfi məktəb və cərəyanlar yaradıldı. İkinci dövrdə isə İslam Şərqinin resenans dövrü kimi xarakterizə edilirki, burada Şərq düşüncə tərzi daha mürəkkəb , zəngin inkişaf yolu kecməsindən bəhs edilir. Ücüncü dövr isə Qərb resonans dövrü adlandırılır ki, buda orta əsrlərin sonu hesab edilir.

Həm Şərq həmdə Qərb uzun sürən müharibələr zamanı öz ərazilərini genişləndirmək, maddi nemətlərini artırmaq istəyirdilər. Bu Qərb üçün bir stimul oldu və əldə etdiyi elmi

naliyyətlər sayəsində güclü silahlar, gəmilər ixtira edərək yeni müstəlməkələri işğal edib öz ərazilərini genişləndirdilər. Qərbin maddi durumu yaxşılaşdıqca yeni ixtiralar, yeni silahlar, yeni yaşayiş tərzi Qərbi irəliyə aparırdı.. Şərq isə dini elm ilə əvəz etmək iddiasına düşdü və ziddiyətlər yaranmaga başladı. Müvafiq olaraq Şərqdə fəlsəfi düşüncə dinin, Qərbdə isə elmin müstəvisində qərarlaşmaga başladı.

Qədimdə ancaq Şərq var idi və o , butöv idi. Yeni dövrdə Qərb yarandı və dünya parçalanmış oldu. Daha dogrusu Şərq əvvəlki bütövlük mahiyyətini saxlasa da , əvvəlki nüfuzunu saxlaya bilmədiyindən cografi mənada Şərq olkələrində yaşayanlar da, tədricən Qərb dəyərlərini mənimsəməyə başladılar ki, bu da Şərqin özgələşməsi tendensıyasıni yaratdı. Coğrafi mənada şərq ölkələrinin çoxunda gedən özgələşmə prosesi Qərbin böyük şəxsiyyətləri tərəfindən təəssüflə qeyd olunurdu. Dahi rus şairi A.S.Puşkin Şərq silsiləsindən olan şeirlərinin birində Ərzurum və İstanbulu şərh edərək yazırdıki, İstanbul artıq qədim Şərqin həqiqətindən uzaqlaşmış və Qərbin cəlbedici ,aldadıcı, naqis cəhətlərinə uymuşdur. Lakin, Ərzurum isə öz dəyərini və qədimliyini saxlamağa davam edir. Lakin Şərq bir ideya kimi mədəni mənəvi dəyərlər sistemi kimi Asiya ölkələrinin çoxunda itsə də, ən azi Avropada yaşamaga davam edir. Avropa Şərqi əvvəlcə muzeylərdə, kitabxanalarda , arxivlərdə saxlayırdı. Son əsrlərdə isə Avropa ancaq Qərb dəyərləri ilə yaşamagın qeyri mümkünlüyünü anlayaraq Şərqə ekzotika kimi deyil , həm də mənəvi bütövlüyə qayıdışın zəruri məqami kimi baxmağa başlamışdır. Beləliklə nə ənənəvi Şərq , nə də ənənəvi Qərb düşüncəsi ayrı ayrılıqda optimal inkişaf modelinin yaradılması üçün yetərli deyil, çünki bunun üçün hər iki tərəfin üstün cəhətləri birləşməlidir. Qərbdə insanların fəaliyyəti də vahid ictimai prinsiplər çərçivəsində həyata keçirildiyindən moxlu sayda adamlar eyni bir ideyanın reallaşdırılmasına cəlb edilə bilirlər. Ayrı-ayrılıqda insanlar cəmiyyətin hissələri olurlar.Bu baxımdan Şərqdə cəmiyyət insanların toplusu, Qərbdə isə insanlar cəmiyyətlərin hissələridir.Hissələrin vahid strukturda birləşməsindən bütöv mükəmməl bir sistem yaranır. Nəticədə Qərbdə cəmiyyət toplu yox, sistemdir. Şərqdə isə fərdi dünyalar bir-birinə bənzər olsa belə, hər biri özündə tamamlanan sistem oldugundan. Onları üzvi sürətdə birləşdirərək vahid dayanıqlı sistem yaratmaq olduqca çətindir.

### 3. Qərb və Şərq mütəfəkkirlərinin düşüncə tərzləri və ədəbi bədii fikirləri

Şpenqlerin dediyi kimi “millətin əsasında ideya dayanır.” Bu ideyanın xalqa çatdırılmasının ən anlaşıqlı və ideal yolu ədəbiyyatdır. Ədəbiyyat insanın mənəvi-estetik inkişafı prosesində müstəsna əhəmiyyətə malik bir vasitədir. Buna görədə bədii yaradıcılıq qarşılıqlı olaraq həm Şərq, həm də Qərb poeziyasında düşüncə, duyğu, oxşarlıq, fərqlilik və dünyagörüşünə təsir göstərdi. Bədii ədəbiyyatın mövzu dairəsi mox genişdir. XİX əsrdə bu iki mədəniyyət, iki düşüncə tərzi arasında körpü atmaq cəhdləri geniş vüsət almışdır. Qərb sivilizasiyası nümayəndələrinin Şərqi öyrənmək cəhdləri, onların Şərq ölkələrinə səfərləri, müvafiq dillərin və adət-ənənələri öyrənmələri sürətləndi. Lakin əksinə Şərq ölkələrindən Qərbə səyahətlər pərakəndə xarakter daşıyırdi. Belə bir şəraitdə Şərq ruhlu insanların , yaradıcı insanların ABŞ-a, Avropaya köçərək Qərb həyatı və qərb düşüncə tərzi ilə tanış olmaları, bu iki sivilizasiyalar qovşagında yazıb yaratmaqları, çox əlamətdar hadisə idi. Bu şəxslər bir tərəfdən Qərb dünyasındakı mədəniyyətin Şərq yönlü aspektlərini öyrənir və özləri ilə onlar arasında bir doğmalıq tapır, digər tərəfdən də Qərbdə öyrəndiklərindən bəhrələnərək öz vətənlərində , özlərinin mədəni mənəvi həyatında olan kəm kəsirləri düzəldirdilər. Daha doğrusu bu tendensiya butövlükdə Avropaya yox, onun ayrı ayrı uzaqgörən mutəfəkkirlərinə və dahilərinə aiddir. Şərq intibahi Qərb renesansından sonra dünya mədəniyyətinin iki nəhəng qütbü arasındakı ədəbi, bədii, elmi, fələfi, ictimai-siyasi, düşüncə tərzi və sosial həyat sferasında meydana çıxan ziddiyətlərin ən konseptual nəzəri şərhi XX əsrin əvvəllrində yaşayan Şərq və Qərb mütəfəkkirlərinin əsərlərində öz əksini tapmışdır.

İ.V. Hötenin hələ 1819- cu ildə yazdigi ‘’Qərb və Şərq’’ divanı bu istiqamətdə atılmış ən cəsarətli addımlardan biridir. İ.V.Höte Şərq dünyasına marağı və rəğbəti ilə seçilən Qərb

mütəfəkkiridir. “Qərb və Şərq divanı” onun ən mürəkkəb əsərlərindən biri olmuşdur. Bu əsərdə şair müsəlman dünyasının ən məhşur və tarixi şəxsiyyətlərinə , o cümlədən Məhəmməd peygəmbərə, dahi Azərbaycan şairi Nizami Gəncəviyə, bütün dünyani lərzəyə salan türk sərkərdəsi Əmir Teymura, Hafiz Şiraziyə və digərlərinə şerlər həsr etmişdir. O, həm də qoca Şərqə aşiq olmuşdu. Höteyə görə bütün şərqlilər anadan şair doğulur. O, Şərqin müdrüklük, kamillik, hikmət ümmanı oldugunu görürdü. Məhz bu poeziya”Qərb-Şərq divanı”-nın yazılması zamanı İ.V.Höte dərhal aydınlıq və konkretlik əlamətləri kəsb etmişdir. Hafizin izi ilə şərq müdrüklüyü fərdini ümumidən, tipik olanı təsadüfü olandan fərqləndirməyə imkan vermişdir. Bundan başqa, şərq mədəniyyəti elementlərinin “daxili baglılığını” dərk etmək və onları bir zəncirin həlqələri kimi təqdim etmək imkanı yaranmışdır.

“Qərb və Şərq divani” əsəri köhnə rejimin dağılmasının parlaq mənzərələri və Məhəmməd Peyğəmbərin Mədinəyə məcburi köçməsi ilə başlayır. Belə ki, Məhəmməd onu təqib edən ideoloji düşmənlərdən xilas olaraq Mədinədə özünə sığınacaq tapmışdı. Məhəmmədin Mədinəyə qəfil hicrəti şair tərəfindən cismin qurtuluşunun yeganə yolunu göstərən, həm də gələcəkdə müsəlmanların ümumi və müqəddəs missiyasınn qurtuluşunun əsasın qoyan, zaman fəlsəfəsinin hesablanmasının başlanğıcı kimi göstərmişdir. Höte bu əsərdə dünyanın peyğəmbərləri sırasında Məhəmməd Peyğəmbərə verdiyi qiyməti, ürəyində gəzdirdiyi sevgini misralarına köçürmüşdü: (Höte, 2019;110)

Gerçəkdən gerçəyə oldu pənahım

Ulu Məhəmmədi sən yaxşı tanı

Bil, yoxdu Allahdan başqa Allahım,

Deyərək fəth etdi bütün dünyanı

“Məhəmməd” şerində Höte peyğəmbərlik missiyası barəsindəki təsəvvürlərin obrazlı dilə çevirməklə, Peyğəmbəri daim artaraq nəhəng mənəvi güc qazanan , genişlənib təntənə ilə okeana ilahi Qüdrətin simvoluna qovuşan bulağa bənzədir. Peyğəmbərin dini dühası digər insanları – xırda irmaqları öz ardınca aparır. 1816-cı ildə “Paralipomen”in əlyazmasında (Paraliromena III , 31 of the “Divan”) şair yazır: ”Yaradılmış varlıqların başı Muhəmməddir. “Cənnət kitabı” adlandırılan on ikinci fəsildən sonra isə “Xeyirxah gecə” adlı epiloq başlayır. Burada şairin “Faust “ tragediyası ilə müəyyən oxşarlıq duyulur. Belə ki, alimin ruhunu yatmış və öz üzərində nəzarəti itirmiş Mefistofelin aramlı səsləri altında Cənnətə aparırlar.”Divanda” da eynilə Proloq və Epiloq arasında zamana görə böyük bir yol qət olunmuşdur. “Allahın peygəmbərlərə göndərdiyi elçi” mələk Cəbrayıl, şairi Cənnətə aparır. Burada şair özünün əbədi rahatlığını vurgulayır, lakin eyni zamanda dünyaya çıxmaq üçün qayada dəlik açaraq dünyanı bu sözlərlə salamlayır:

Bütün qəhrəmanlara imkan vermək üçün,

Orada günlər ələmsiz keçir....

İlk və son fəsillərdə daha qabarıq görünən zaman qaçışı romantik xəyallardan sərt real həyata keçməyi vurğulayır. Digər tərəfdən isə Yer üzərində mövcud olan hər şeyin dərki idi.

“Qərb və Şərq divanı”-nın tarixi-bədii əhəmiyyətinın əsası budur ki, bu əsər Qərblə Şərqin ayrılmazlığını tərənnüm edən, bəşəriyyəti dialoqa çağıran, həmçinin İslam peyğəmbərinin və Şərq mənəvi dünyasının müqəddəslərinə şerlər həsr edən və Şərqə aid mühüm hadisələr haqqında məlumatlar Avropa fikri üçün həqiqi mənada bir dərya və ya bir dolgun xəzinədi. Həmçinin onların siyasi talelərinin Hötenin özünün talehiylə vəhdəti sezilir. Höte üçün Şərqə, onun tarixinə adət-ənənələrinə mədəniyyətinə, məişətinə maraq yeni idi. Bu həmdə şairin XVIII

əsrdə Şərq elminə marağın olmasının təzahürüdür. Bu əsər Şərqə, Türk-İslam dünyasına böyük maraq və heyranlıqdan, həmçinin ömrünün müdrük çagında taleyin şairə qismət etdiyi qeyri-adi sevgidən dogulmuşdur. Hötenin bəşəriiyəti düşündürən, insanları təhlükədən çəkindirən , qiymətli əsərləri bütün zamanlarda oxunacaq və seviləcəkdir. O, bir cox məhdud düşüncəli həmvətənlərindən fərqli olaraq xristianlıgı Qərb hadisəsi kimi dəyərləndirmək və Şərqə qarşı qoymaq iddiasından uzaq idi. Höte bu poeziyanın arxasında Şərqin özunəməxsus dünyagoruşunu və mədəni mənəvi dəyərlər sistemini də görürdu və dini inancları da bura daxil edirdi. Şərqin böyüklüyü bu poeziyada daha gözəl ifadə olundugundan texniki tərəqqi fonunda mənəvi yoxsullaşma keçirən Qərb dünyası üçün ən yaxşi cixiş yolu, ən yaxşi əlac ilk növbədə Şərq poeziyasına müraciət idi ( Höte, 2019;208).

Qərb mütəffəkirləri və şairlərinin Şərq düşüncə tərzi və dəyərlər sisteminə olan ehtiyacı əsla təsadüfi deyildir. Böyük rus yazıçısı L.N.Tolstoy da dəfələrlə Şərq mövzusuna müraciət etməklə bərabər Şərq və Qərbin sintezini öz yaradıcı təfəkküründə də ifadə etmişdir. Onun əsərləri bir çox Şərq olkələrində az qala milli yaradıcılıq nümunəsi kimi qəbul olunurdu. Tolstoyun həyatında Şərq mədəniyyətinin öyrənilməsi Şərq xalqlarının təlimilciləri ilə ünsiyyəti, digər böyük rus yazıçılarının həyatında olduğu ilə müqayisədə daha böyük yer tutmuşdur. Lev Tolstoy Şərqin qədim təlimləri ilə öz sələflərindən daha çox maraqlanır və daha çox öyrənirdi. O, rus yazıçıları arasında birinci olaraq Afrika və Asiya xalqlarının mütəfəkkirləri ilə şəxsi əlaqələr qurmuş və bununla da rus mədəniyyəti ilə Şərq mədəniyyətləri arasında bir növ canlı körpü yaratmışdı. Lev Tolstoyun Çin publisistləri, Hind xadimləri, Yapon ədibləri, Afrika və Asiyanin onlarca yazıçı puplisist və ədibləri ilə yazışmaları və onların çoxunun Yasnaya Plyanaya gəlişi –bütün bunlar mədəni dəyərlərin geniş mubadiləsinə və rus ədəbiyyatının Şərqdə papulyarlaşmasına rəvac verirdi. İmperializmin dövrünün başlanmasi ilə Tolstoy dünya yazıcılarından birinci olaraq Asiya xalqlarının müstəmləkə istismarından müdafiəsi yönündə çixişlar edirdi. Həmçinin L. Tolstoy İran mədəniyyətinə böyuk maraq gostərir , qədim iran abidələri və eposunu öyrənərək Hafiz, Sədi və Firdovsi yaradıcılıgından vəcdə gələrək onlardakı incə poetikliyi, həqiqi xalq müdrüklüyünü, insansevərliyi qeyd etmisdi. Tolstoy Sədi yaradicılıgini yüksək qiymətləndirərək onun Gülüstan əsərinin 3-cü fəslindən bir epizodu özünun “Rus oxu kitabi” və “Əlifba” kitablarinda nagila cevirərək yazmışdır. Tolstoyun 1895-1910-cu illəri əhatə edən gündəliklərində dönə-dönə Məhəmməd Peyğəmbərin adı çəkilir, onun yaydığı din ən üstün din oldugu bildirilir. L.Tolstoy inanırdı ki, xristian dini də ilkin formada məhz islamın prinsipləri ilə səsləçən bir dini təlim olub, və dəyişikliklərə məruz qalıb. Ümumiyyətlə Şərq mədəniyyəti, ədəbiyyatı ilə maraqlanan L.Tolstoy “Quran”-ı və dini kitabları da çox mütaliə edib.

XIX əsrin axırlarında M. Ş .Vazeh poeziyasının Avropada populyarlıq qazanması da həmin dövrdə məhz Şərq poezıyasına müəyyən daxili zərurət yaranmasından xəbər verir. M.Ş.Vazeh Avropa oxucularına bilavasitə deyil, bir qərblinin tərcüməsində və ünvanında təqdim olunmuşdu. Lakin, həmin dövrdə , Şərq ruhunun bilavasitə daşıyıcılarınında Qərbdə təhsil alması və orada yazıb yaratması bu iki mədəniyyətin sintezi ücün əlavə imkanlar açmışdır.

Şərq ruhunu Qərbdə ən yüksək səviyyədə təblig edən miliyyətcə ərəb olan Cübran Xəlil Cübran idi. Onun poeziyası, həm də öz məzmunu və pafosu etibarı ilə bu vəhdətə xidmət edirdi. XİX əsr Avropa ədəbi mühütündə Şərq poetik ənənələrinə və Şərq dəyərlər sisteminə maragın artması və bu prosesdə Emerson, Uitmen, və s, ilə yanaşı , ərəb mənşəli şairlərin C.Cübran, Əmin ər Reyhani , Mixail Nüayimə və s. kimi ədəbiyyatçıların iştirakı , bu yeni keyfiyyət sintez hadisəsinin elmi-nəzəri şərhi Azərbaycan oxucusuna ilk dəfə tanınmış şərqşünas alim Aida İmanquliyeva tərəfindən təqdim edilmişdir. O, bu proseslərdə bu yazıçıların yaradıcılıgını araşdıraraq yazır; “Onlara əzəldən Şərq xalqlarınının mədəniyyətinə xas olan ümumbəşəri və humanist ideallar əsasında öz dogma mədəniyyətlərində bu dəyərlərin təsdiqi üçün müfaviq

üsullar tapmaq asan idi, həm unutmaq lazım deyil ki, bu yazıçılar öz vətəninin adət- ənənələrini və öz dilini qoruyub saxlayan mühacirlər mühüti əhatə edirdi.

Cübran Xəlil Cübranın özü xiristian ailəsində anadan olsa da, onun səcdəgahi və ideali müsəlmancılıq olmuşdur. Lakin, həmin dovrdə Şərq ruhnun bilavasitə daşiyicilarinin da Qərbdə təhsil alması və orada yazib yaratmasi bu iki mədəniyyətin sintezi ucun əlavə imkanlar yaratmiş və ədəbi bədii əlaqələrin ifadə edən klassik Şərqin əzəmətini və ecazkarlıgını yeni dövrün ifadə vasitələri ilə amerikalıların öz dilində onlara təqdim etmişdir. Onun poeziyasi Şərq və Qərbin vəhdətindən dogmaqla yanaşi həm də öz məzmunu və pafoslu etibari ilə bu vəhdətə xidmət edirdi. Onun təkcə düşuncəsi yox ruhu da şərq ruhudur. İctimai inkişafda Şərqə qayitmaq yox , əksinə Qərb dəyərlərini mənimsəmək və onlari Şərqin ruhu ilə isidərək canlandirmaq maddi həyatin cansıxıcı aurasına təravət gətirmək, texnika əsrini insani mahiyyətindən məhrum edən ifrat rasionalizmə liriklik , həzinlik şəfqət qatmaqla yeni dövrü daha ahəngdar etmək misssiyasi Cübran sənətinin leytmotivi sayila bilər. Cübranin ənənəvi Şərq fəlsəfi fikrini, Qərb oxucusuna daha yaxşi çatdira bilməsi ucun epik və lirik ifadə formalarından istifadə etdiyinin şahidi oluruq. Onun təkcə düşüncəsi yox, ruhu da Şərq ruhudur. Cübranin göstərdiyi səylər yazdiqlarını Qərb oxucusu ücun daha anlaşıqlı etmək istiqamətində idi. O, özü bir xiristian olmaqla yanaşi Şərq mühütunü o dövrün ictimai gercəkliyindəki eybəcərlikləri ilə qələmə alaraq yazir;

Dini mənsubiyyətdən asılı olmadan ’’ Şərq elə Şərqdir’’.

Mövhumat və dini fanatizm də əslində dinin özü deyil, bütövlükdə Şərqin Şərq düşüncə tərzinin tənəzzülü və cirlaşmasi ilə baglıdir. Beləliklə, Cübran məlum Şərq hikmətini struklaşdirir və ənənəvi qəlb rahatlığını dinamik tarazlıq kimi təqdim edir.(A.İmanquliyeva səh 159.)

Daha bir mütəfəkkir Əmin Əl Reyani ‘’Mən Şərqəm’’şerində Şərqliliyin mahiyyətini bir necə baxımdan təqdim edir;

Mən Şərqəm!

Mən Allahin ilk yaratdıgının təməl daşıyam.

Burada qoca Şərqi Qərblə görüşdürən Əl Reyhani, digər tərəfdən onu müasir Şərqlə müqayisə edir. Onun yaradıcı potensialı Qərbin romantizm dəyərlərinin mənimsənilməsi sayəsində güclənirdi ki, bu da ərəb yazıçılarını daha geniş , qlobal umumbəşəri problemlər qoya bilmək səviyyəsinədək yüksəldir və son nəticədə onları yalnız dünya ədəbi prosesinin bərabərhüquqlu iştirakcısi deyil, həm də yeni bədii dəyərlərin carçisi edirdi. Uzun müddət Amerikada yaşayib yaratmasına baxmayaraq Əl Reyhani Şərq ruhuna həmişə sadiq qalmiş Şərq dəyərlərini tərənnüm etmiş insanın mənəvi kamilliyini sivilizasiyanın zahiri cazibəsindən uca tutmuşdur. A.İmanquliyeva yazirdi; ’’Əmin Əl Reyhaninin;’’ Mən Şərqəm’’ şerində Şərqin kecmiş əzəməti barədə duşuncələr yer alir, Şərq rəmzə cevrilir, günəş buradan dogur, həyatın başlangıcı, insan oglunun yer uzərində ilk addimlarını atdigi yer buradir.

Professor Aida İmanquliyeva bütün yaradıcı ömrünü Qərb və Şərqin ən böyük nümayəndələrinin timsalında araşdırmış, bir tərəfdən hiss və əqlin, digər tərəfdən Şərq və Qərbin düşüncə tərzlərini vəhdət məqamlarını üzə çıxararaq bəşəriyyətin məhz bu vəhdətə doğru inkşaf etmək əzmini təsbit etmişdir. Əmin Əl Reyhani Şərq ruhunun da ən cox dinlərdə yaşadıgını nəzərə alir, islam dəyərlərinə böyük rəgbət bəsləyirdi. O, deyirdi: Ruh idealı nə təkcə Şərqə aiddir nə də Qərbə. Ruhun özünü ifadə cəhdi, ruhun həqiqət axtarişi hər yerdə eynidir və əsl xilaskar o kəsdir ki, onda Şərqin ruhu və Qərbin ağlı var. Qərbin elm və mədəniyyətinə yiyələndikdən sonra vətənə qayıtmaq Şərqi düçar xəstəliklərdən müalicə etmək təşəbbüsü Reyhaninin əsərlərində geniş yer tapmışdır. Qərblə Şərq arasında uçurum olmas; fikrinin geniş yayildıgı bir şəraitdə tərbiyə almış və yetişmiş ər-Reyhani , eyni zamanda özünün həm Şərqə ,

həm də Qərbə mənsublublugunu hiss edirdi. O, Şərq adamı üçün Qərbə münasibətin ideya əsalarını müəyyən etmiş, elmi-fəlsəfi, və bədii yaradıcılığında bu problemlərə geniş yer vermişdir.(İmanquliyeva,2002;17)

Rusiya vasitəsilə qabaqcıl ictimai Avropa fikrinin və maarifcilik ideyalarının Azərbaycana keçməsi Şərq və Qərb dəyərlər sisteminin bu ölkədə qovuşmasi ucun münbut şərait yaratmişdir. Məhz M.Fətəli Axundov bu iki sivilizasiya arasında körpü rolunu oynamısdir. M.F.Axundovun simasında hər iki mədəniyyət və düşüncə tərzi zirvədə birləşir. O, bütövlükdə xalqın yeni dəyərlər sisteminə yiyələnməsi uğrunda mubarizə aparırıdı. O, sevgi məhəbbət dastanlarından romantik meyillərdən uzaqlaşıb diqqəti gerçək ictimai həyatın aktual problemlərinə yönəldiridi. Burada o öz mili mahiyətini dərindən dərk etdiyindən məhz millətini ürəkdən sevdiyindən ətalətdən xilas olmağa və sivilizasiyanın yeni naliyyətlərinə yiyələnməyə səsləyirdi. M.F.Axundovun böyüklüyünü onun zəif cəhətlərində axtarmamaq üçün əvvəlcə onun xidmətlərini düzgün qiymətləndirmək lazımdır. Onun əsərləirndə əsas məqsəd təsvirin cəhaləti aradan qaldırmaq və nəticə çıxarması idi. O, həm Şərq həm də Qərb fəlsəfi fikrini kifayət qədər yaxşı mənimsəmiş bir şəxs olaraq fransız maarifçilərinin, rus inqlabçı demokratların ,dekabristlərin inqlabi ruhunu və maarifçilik missiyasını Şərqə təqdim etməklə Şərq despotizmini cəhaləti tənqid etmiş, Qərb dəyərlərini bölgədə yayılmasına çalışmişdir.

Şərq və Qərb insanının düşüncə tərzini və dünyagörüşünu bir fərdin timsalında qarşılaşdıran daha bir mütəfəkkir Əhməd Ağaoğlu ‘’Mən kiməm’’ əsərində bu suala cavab axtarmışdır. Burada müəllif Şərq və Qərb cəmiyyətlərini bir biri ilə qarşilaşdırır və Qərbi daha güclü hesab edir. Şərqdə milyonların icərisindəki insan tək-tənhadir, xəstələr, evsiz-eşiksizlər, aclar barəsində hec kəs düşünmür. Qərbdə isə hər kəs haqqında düşünülür və nəticədə unudulmuş bir kimsə qalmır. Müəllif Şərq tarixində eqoizimlə alturizm arasındaki müvazinətin Qərbdə altruizm , Şərqdə isə eqoizmin xeyrinə bu qədər pozulmasının səbəblərini axtarıb tapır. Ə.Ağaoğlu Avropa cəmiyyətinin dayanmadan irəli getməsinin səbəbləri arasında şəxsi mənafenin ümumi mənafedən həmişə arxa planda tutulmasını da xüsusi vurğulayır. Başqa sözlə, hər hansi bir fərd cəmiyyətdə tutdugu hər hansi bir mövqedən asili olmadan öz şəxsi mənafeyini önə kecirmək barədə qətiyyən düşünmür. Qərb renesansının dünyaya bəxş etdiyi mədəni nümunələrin formalaşdigi bir dövrü Ə. Ağaoğlu böyük təəssüf hissi ilə paralel xatırladır:

- Heyif ki, Qərbdə olub bitən bu dərin dəyişikliklərdən Şərq xəbərsizdir, o, hələ də əski qabığının içində əski ruhunu , əski düşüncə və yaşayış tərzlərini saxlamaqdadır. Ə.Ağaoğlu Parisdə yaşadığı illərdə Fransanın məhşur alimləri Ernast Renan və İppolit Tenllə yaxınlaşır. Onlardan dərs alan Ə.Ağaoğlu qısa müddət ərzində onların sevimli tələbəsinə çevrilir. Təhsilini bitirdikdən sonra Rennan həttda ona Parisdə qalmağı təklif edir:

- Sən dünya miqyasında alim ola biləcək şəxssən- deyir-Vətəninə geri dönmə. Şərq səni udar.

Əhməd bəy:

-Şərqin oxumuşlara ehtiyacı var- deyə cavab verir- Sizdən aldıqlarımı soydaşlarıma çatdırmalıyam.

Ə.Ağaoğlu Şərqi Qərb səviyyəsinə qaldırmaq üçün “Qəlblə-hisslə şərqli olmaq, beynlə qərbli olmaq” fikrini irəli sürürdü. O, Şərq və Qərbin münasibətini yarış, rəqabət kimi qəbul edirdi. O, Türkiyənin müasir Qərblə rəqabətdə olma realliğını yaxşı başa düşərək problemlərə də rəqabətdə məğlub olmamaq baxımından yanaşmağı təklif edirdi.Vətən milli istiqlala çıxdıqdan sonra “Hansı yolla getməlidir?” probleminin həllində Ə.Ağaoğlu qərb elm və texnalogiyasından istifadənin tərəfdarı idi.
Beləliklə , Ə. Ağaoglu bu istiqamətdə bir yazıçı və mütəfəkkir olaraq Şərq və Qərb düşüncə

sisteminin daşiyicisi kimi dünyagörüşünün müəyyənləşdirilməsi , dəyərləndirilməsi baxımından xüsusi əhəmiyyət kəsb etmişdir.

Şərq və Qərb problematikasını dərindən mənimsəyən, öz pyesində bu problemin məhz mahiyyətindən çıxış edən daha bir yaradıcı yazıçı C. Cabbarlı olmuşdur. Onun yaradıcılığı elə bir dövrün ideya bədii təcəssümü idi ki, o dövrdə hər şey Şərqlə Qərbin vəhdətinin labüdləşməsindən xəbər verirdi. Belə ki, yazıçı "Aydın " pyesində yeni dövrün qəhrəmanını "Günbatan fikirli, gündoğan duygulu " kimi qələmə alaraq Qərbi-fikir, Şərqi isə duyğu timsalı kimi qələmə almışdır. Onun əsərlərində insanın daxili azadlığı ön plana çəkilir çünki, cəmiyyət insana öz urəyinin hökmü ilə yaşamaq imkanı verməlidir. C. Cabbarlının qoyduğu bu tələblər Avropada , Amerikada hələ indi-indi gah "gender bərabərliyi" gah "qadın hüquqları" kimi gündəmə çıxarılır və bizlərə Qərb dəyərləri kimi təqdim olunur.C. Cabbarlı isə əsrin əvəlində bir addım qabağa getmiş və cəmiyyətin yaratdığı çəpərləri ləgv etmək istəklərin özünü yüksək mənəvi pilləyə qaldırmaq, qadağaları könüllülüklə əvəz etmək mövqeyindən çıxış etmişdir. Burada C. Cabbarlı ənənəvi Şərq fəlsəfəsinin hüdudlarından kənara çıxır. Bu ənənə nəfsin, təbii istəklərin buxovlanmasını onlar üzərində əqli nəzarətin təmin olunmasını nəzərdə tutur. (Cabbarlı**, 5** s) Arzuların boğulmasına, sədd çəkilməsinə yönəldılmiş Şərq tərbiyəsinə qarşı üsyan edir. Məhz problemin dərinliyinə gedərək C. Cabbarlı ancaq sosial normaları, artıq qərarlaşmış ictimai mühiti və onun mənəvi prinsiplərini müdafiə etmək mövqeyində dayanıb qalmır, insanın aliliyi , məhz insanın son məqsəd olması mövqeyindən çıxış edərək cəmiyyətin insan qarşısında qoyduğu bütün buxovları təftiş edir, onlara yenidən , yeni dövrün səviyyəsindən baxır. Məhz öz dövrünün və öz mühütinin rəngində konkret təzahür Şərq və Qərbin millilik müasirlik vəhdətində qələmə almışdır. Onun böyükluyu və dahiliyi gələcək nəsillərin yoluna çıraq tutmağındadır.

Məşhur fransız yazıçısı və dramaturq Aleksandr Düma 1858-ci ilin ikinci yarısından 1859-cu ilin əvvəlinə kimi Qafqaz da daxil olmaqla Rusiya imperiyası ərazisində olmuşdur.O, bir sıra Azərbaycan şəhərlərində o cümlədən Quba, Bakı, Dərbənd, Şamaxı və Nuxada olmuşdur. Vətənə qayıdan yazıçı səfərini yaddaşlara köçürmək üçün "Qafqaz səfəri" adlı əsərini yazmışdır. O, Azərbaycana ilk səfərini qədim Dərbənddən başlamışdır.A. Düma onu burda qarşılayan azərbaycanlıların necə qonaqpərvər, mehriban, istiqanlı, ailəcanlı olmaqlarını geniş qeyd edərək bu görüşdən xoş təəssuratlarla ayrılaraq gördüklərini qələmə alır. Duz-çörəklə qarşılanıb yola salınmaq kimi adət -ənənələr, milli xörəklər xüsusən də kababın hazırlanmağı onun çox xoşuna gəlir.Daha sonra onun Bakı haqqında fikirləridə diqqəti cəlb edir. O, yazırdı: Bakı küləklər məskəni deməkdir.Avropada buna bənzər şəhər yoxdur.İlk baxışda Bakının iki hissədən ibarət olduğunu qeyd edir. O, yeni tikililəri ağ şəhər, qalan qədim tikililəri isə qara şəhər kimi oldugunu vurğulayır. Dünyaca məhşur olan zəfəranın yetişdirilməsində Bakının əvəzssiz yer olduğunu qeyd edir. A. Dümanın xan qızı Natavanla görüşünü və bu görüşdə onlar arasında səmimi münasibətlər yarandığını, onunla şahmat oyununda uduzaraq Natavanın aglına, məntiqinə, dərrakəsinə heyran olaraq Azərbaycan qadını haqqında maraqlı fikirləri ilə diqqəti cəlb edir.(Düma,2014;33**)** A. Dümanın Qafqaz əsəri Qafqazın tarixi coğrafiyasıdır. Müəllif burada çoxsaylı xalqların adət-ənənələri, tarixi və təbiəti haqqında yazdıqları bədii tarixi ensklopediyadır.Bəşəriyyətin beşiyi adlandırılan Qafqazı Avropaya tanıtmaq məqsədilə onu qarış qarış gəzən yazıçı azərbaycanlıların həssas, qaygıkeş, agıllı, qonaqpərvər, mehriban, sözübütov, dəyanətli, mərd, cevik, qəddi-qamətli, gözəl olduqlarını xüsusilə qeyd edərək Qərb oxucularında Şərq haqqında gözəl duygular yaradır.

Bir sözlə bütün sənət formalarının, o cümlədən, ədəbiyyatin həm hissi həm də əqli tərbiyə funksiyası vardır. M. Qorki yazirdi: "Bədii ədəbiyyatin tərbiyəvi əhəmiyyəti ona görə çoxdur ki, o, eyni zamanda həm düşüncəyə, həm də hissiyata güclü təsir edə bilir. Cünki, insanın kamilliyi, onun hissi və əqli qüvvələrinin birliyindədir.

Bəli, onlar iki mədəni ənənənin həm Şərqin həm də Qərbin mədəni irslərinin daşıyıcıları oldular.

## 4. Şərq və Qərb sivilizasiyası və mədəniyyəti

Sivilizasiya-müəyyən sosial genotipə malik olan sosial stereotip kimi çıxış edən, dünyada sabit yer tutan insanların sosial tarixi və mədəni ümumiliyidir. Sivilizasiya tarixin müəyyən bir mərhələsində bir neçə mədəniyyətin birləşməsini əks etdrir, elm və texnikanın təsiri nəticəsində həyat rifahının yaxşılaşdırılmasını səciyyələndirir. Sivilizasiyanın əsas şərti kimi şəhərlərin və ilk dövlətlərin yaranmasını götürsək onun yaşı qədim Şərq tarixi ilə başlanardı.Yaxud sivilizasiya üçün ilkin şərt "Homo sapiensin" formalaşması və ilk əmək alətlərinin düzəldilməsini götürsək, sivilizasiyanın yaşı tarixin özü ilə eyniləşərdi. Lakin biz sivilizasiyanın ənənəvi və bizim fikrimizcə daha düzgün anlamından çıxış etsək, o, milli və dini səciyyə daşımaqdan daha çox ümumbəçəri səciyyə daşıyır. Sivilizasiyalar hər şeydən əvvəl texniki-iqtisadi inkişaf dərəcəsinə görə, iqtisadi və sosial proseslərin sürəti, mənbələri, hakim dini və dünyagörüşü xüsusiyyətlərinə və mədəni proseslərdə tutduqları yerə görə fərqlənirlər. Tarixdə hələ ən qədim dövrlərdən şərq və qərb sivilizasiya tipləri daha çox diqqət çəkmiş və geniş yer almışlar. Yəni sivilizasiyaların yaranmsına səbəb olan amillərlə, dagılmasını şərtləndirən faktorlar bir az oxşardırlar. Məsələn, bir-birinə yaxın və qonşu toplumlar müxtəlif sivilizasiyalar yaradıblar. Bunlara din, adət-ənənə, iqtisadiyyat, milli yaxınlıq, elm, təhsil, hərbi misal çəkmək olar. Bu amillərdən biri hər hansı sivilizasiyanın yaranmasında çox, digəri isə az rol oynamışdır. Çünki,Misir sivilizasiyasının əsasını monoetniklik , iqtisadiyyat və din tutdugu halda Şumer sivilizasiyasında çoxetniklik, elm və din ön plana çıxmışdır. Eyni zamanda Türk sivilizasiyasına milli yaxınlıq. Hərb və mədəniyyət mühüm rol oynadıgı halda, Çin sivilizasiyasında elm və təhlükəsizlik və monoetniklik mühüm rol oynamışdır.

Sivilizasiyanın mühüm qollarından olan mədəniyyət nəsildən –nəsilə, hekayələr, əfsanələr, atalar sözləri vasitəsilə həyata keşərək cəmiyyətdə insanin şəxsiyyət kimi formalaşmasında mühüm rol oynayır.

Mədəniyyəti bir proses və məhsul kimi başa düşssək, mənəvi dəyərlərin, normaların , biliklərin, ideyaların yaradılmasına, saxlanılmasına, yayılmasına, formalaşmasına töhvə verən bir vasitə olduğunu qəbul etmək lazımdır. Mədəniyyət insanın , cəmiyyətin , dövlətin tükənməz inkişaf mənbəyidir.

Şərq və Qərb mədənyyətləri arasında kifayət qədər oxşar və fərqli cəhətlər vardır. Bəzi mütəxəssislərin dediyi bu mədəniyyət sistemləri bir-birinə qarşı duran, yaxud elə bir fərqi olmayan sistemlər deyildir. Artıq məlumdur ki, dünya mədəniyyətinin ilkin mənbəyi, dünya sivilizasiyasının başlanğıcı Şərq olmuşdur. Şərq mədəniyyəti təbiətə daha yaxındır. Onlar öz mədəniyyətlərini uzun əsrlər boyu daha təbii yolla formalaşdırırdılar. Şərq mədəniyyətinin mahiyyəti, əsas prinsipləri ahəng, harmoniya qanunları ilə formalaşır. Mədəniyyətin praktik işdə, məişətdə olan təzahürünə gəlincə deməliyik ki, ümumiyyətlə zəngin keçmişi olan Şərq, mədəniyyət səviyyəsi etibarı ilə çox qabağa getmişdir. Dünyanın bütün aparıcı texnikasının əsasən Qərbdə ixtira olunması onun mədəniyyətinin Şərqdən üstün olması təssəvürü yaradıb. Qərb mədəniyyəti əsasən xiristian mədəniyyətinin bazası üzərindədir. Lakin indiki zamanda Qərb mədəniyyəti ciddi girdab içərisindədir. O bu girdabdan çıxmaq üçün Şərq mədəniyyətini dərindən öyrənməli və tətbiq etməlidir. Bütün bunlar bir daha göstərir ki, Qədim Şərq, həqiqətən dünya mədəniyyətinin başlangıcı olmuş, Qərb isə ondan bəhrələnərək öz elm və mədəniyyətini yarada bilmişdir. Müasir qloballaşma şəraitində Şərq və Qərb mədəniyyətləri arasında qanunauygun olaraq dövrün tələblərinə uygun yxınlaşma və dialoq prosesi daha da sürətlənir və inkişaf edir. Bütövlükdə dünya mədəniyyəti, konkret olaraq Şərq mədəniyyəti bəşəriyyətin sosial-mədəni tarixi və mənəvi inkişafı ilə bilavasitə baglı olan mənəvi-etik, elmi-fəlsəfi ideya və baxışları özündə birləşdirən tam, vahid mədəniyyətdir.

XIX əsrdə mədəniyyətin təkamül inkişafi nəzəriyyəsi yarandı. Bu kulturoloji konsepsiyanin əsasini qoymuş ingilis tarixçisi E.B.Taylorun anlaminda mədəniyyət yalniz

mənəvi mədəniyyətdir: incəsənət, etiqat ,hüquqi və əxlaqi normalar. O, qeyd edirdi ki, mədəniyyətdə təkcə ümumbəşəri yox həm də, ayri- ayri xalqlar üçün spesifik olan dəyərlər də vardir. O, göstərirdi ki, mədəni inkişaf düz xətlə gedə bilməz. Mədəniyyət cəmiyyətin bütün tarixi boyu əldə etdiyi maddi və mənəvi sərvətlərin məcmusudur. Həmçinin onların yaradılması qabiliyyəti və bəşəriyyətin tərəqqisi üçün onlardan istifadə etmək və onları nəsildən-nəsilə keçirməkdir. *Mədəniyyət insanin sehirli dünyasıdır, onun özünü dərk etməsi və şəxsiyyətin mövcudluq üsuludur. Bütövlükdə dünya mədəniyyəti konkret olaraq islam mədəniyyəti, bəşəriyyətin sosial mədəni tarixi və inkişafi ilə bilavasitə bagli olan mənəvi- etik, elmi-fəlsəfi baxışlari özundə birləşdirən tam vahid mədəniyyətdir.

Mədəniyyət bir cəmiyyətin ənənələri, həyat tərzi ,inancları ,bayramları, ayinləri yəni onu həyata baglayan təcrübələr məcmusudur. Mədəniyyət cəmiyyətin inamı həyatda qalması duyğu və dəyərlərləri ilə bağlı həyat təcrübəsidir. Daha doğrusu, mədəniyyət bir növ insanın sirli sehirli dunyası, özünü reallaşdırma və qiymətləndirmə bacarigi və qabiliyyətidir. O mədəni irs olaraq davam edən nəsildən-nəsilə ötürülən xalq ruhunun təzahuru, insanin yaşam tərzi və mənəviyyat forması, yaratdiqlarinin canli daşıyıcısıdır. Mədəniyyət insan tərəfindən yaradilmiş özunun ictimai varligidir. Mədəniyyət boş və zəminsiz yerdə yaranmayib o, özunə məxsus mənbələri ilkin maddi və mənəvi əsaslari zəminində yaranib inkişaf etmişdir. Min illər yaranmiş sivilizasiyalar arasinda movcud olmuş sosial mədəni yaxinlaşmalar bəşər həyatinin və onun inkişafinin vahid məkanda butövləşməsi muasir qloballaşan dunyada daha da inkişaf edərək həyatimiza yeni cizgilər və meyllər gətirdi. Meydana gələn bu meyllər qloballaşmanin miqyas və sərhədlərini dahada genişləndirərək dövlət müxtəlif iqdisadiyyat və mədəniyyətin inkişafinda yeni imkanlar acdi. İngilis etnoqrafi və yazicisi E.Taylorun dediyi kimi, sosial mədəni dəyərlər umumiyyətlə mədəniyyət yalniz umumbəşər olmayib həmdə özundə ayri ayri xalqlar ucun spesifik olan cəhətləri və xusisiyyətləri də birləşdirir. Buradan anlaşilir ki, mədəniyyətin inkişafında təkcə umumbəşər dəyərlər deyil, həm də ayri ayri xalqlar ucun ancaq onun özunə məxsus olan dəyərləridə vardir. Mədəniyyətlərin inkişafi və onlar arasindaki qarşılıqlı munasibətlər, spesifik qanunauygunluqlara malik çox murəkkəb və ziddiyətli prosesdir. Müasir dünyamızda geden geosiyasi və etnomədəni proseslər qarşiliqli anlaşma və faydalılıq əsasında vahid məkan yaradilmasını zəruri edir. Bu zərurət Şərq və Qərb arasında irqi, milli dini fərqləri arxa plana keçirərək sivilizasiyalararası dialoqun inkişafi üçün yeni imkanlar açır. Xüsüsəndə orta əsrlərdə Şərq və Qərb mənəvi əlaqələri özünu daha çox göstərir.

Müasir dövrdə Qərb və Şərq sivilizasiyaları bir -birilə daha çox əlaqədədir. Bəşər sivilizasiyasının gələcək taleyi məhz Qərb və Şərq mədəniyyətlərinin qarşılıqlı əlaqələrindən asılidır. Lakin Qərb mədəniyyətinin Şərq xalqlarının milli mənəvi mədəniyyətinə təsiri və əlaqəsinə birmənalı yanaşmaq olmaz. Bir tərəfdən elm və texnalogiyanın Qərb ideya və dəyərlərinin Şərq insanına müsbət təsiri, bir tərəfdən də Qərbin bir cox dəyərlərinin, düşüncə tərzinin , Şərqin adət ənənələrinə mənfi təsiri danilmazdir. Bu gün biz artıq onlar arasında mədəni əlaqəni kortəbii deyil, qarşılıqlı anlaşma və dərketmə şəraitində məqsədəuygun bir proses oldugunu göruruk. Bununla yanaşi eyni zamanda mədəniyyətlər arasında muxtəlif dinlərin birgə movcudlugu və dialoqu əməkdaşlıgı günügündən genişlənir və möhkəmlənir. Umumiyyətlə, sivilizasiyalar Şərq və Qərb arasında fərqlərlə deyil oxşar cəhətlərilədə səciyyələnir. Doktor M.Xətami “İslam dialoqu və vətəndaş cəmiyyəti “ adli əsərində sivilizasiyalararasi toqquşmani pisləyir və Qərbin Şərqə qarşi apardıgı müharibəni lənətləmiş, dinlər və xalqlar arasında olan dialoqa haqq qazandırmışdı. C.Nehri isə “ Dünya tarixinə nəzər” kitabında yazırdi :- Sivilizasiyanin inkişafinda Asiyanin rolu danılmazdır. Çünki, Avropa millətlərinin coxu öz mənşəyini Asiya xalqlarindan göturmuş, onları n hesabina mədəniləşmişlər.Və bir çox Avropalı mütəfəkkirlər İslam Şərqində olan mədəniyyətin , Avropa mədəniyyətinə müsbət təsirini yüksək qiymətləndirmişdilər. Mədəniyyətlərin bütövlüyündən söhbət gedəndə ilk növbədə beynəlxalq məzmunlu eyni zamanda zənginliyi ilə fərqlənən bənzərsiz və təkrarolunmaz milli mədəniyyəti özündə birləşdirən mədəniyyəti nəzərdə tutmaq

lazımdır. Dünyada elə bir mədəniyyət yoxdur ki, etnik milli və dini ənənələri özündə birləşdirməsin . Beləliklə, mədəni müxtəlifliklə yanaşı bəşəriyyətin mənəvi həyatında əsas yer tutan mədəniyyətlərarası əlaqələr mühüm birləşdirici amildir. Bu əlaqə həmçinin Qərb və Şərq regionlararasi münasibətlərin yaxınlaşmasi nəticəsində umdünya mədəniyyətinin formalaşmasında həlledici rol oynayır. Umumbəşəri dəyərlər unversal mənəvi sərvətlərə çevrilir. Lakin , mədəniyyət sivilizasiyalarin inkişafi həmişə dinc olmamış onlar arasında fərqlər ziddiyətlər hətda qarşidurmalar nəticəsində sivilizasiyalarin inkişafi, həmdə süqutu baş vermişdir. Qərb və Şərq mədəniyyətləri arasindakı ziddiyətlərin minilliklərlə davam edən bir tarixi vardir. Bəşəriyyət tarixində hər bir cəmiyyət oz mədəniyyəti ilə səciyyələnir. Hələ XIV əsrin sonunda sosiologiyanin atası hesab olunan İbn "Müqəddimə" adlı əsərində hər bir mədəniyyətin meydana çıxması ilə bağlı aşağıdakı düşüncə tərzini irəli sürmüşdür:

"İnsanın fiziki quruluşunun əhval ruhiyyəsinin və davranışının formalaşmasında hava şəraiti iqlim şərtləri rol oynayır. Bol yaxud az qidanın, coğrafi şərtlər insanin fziki və psixoloji keyfiyyətlərinə təsir edərək siyasət və idarəetmədə özünəməxsusluq formalaşdırır".

Bu gün müasir dünyada əsas mədəniyyət xətlərindən biri köklərini yəhudi-xiristian , yunan-roma mədəniyyətlərindən alan və onların ənənələrinə söykənən Qərb, digəri isə başlangıcını türk , ərəb və iran mədəniyyətləri ənənəsindən yəni islam dünyagörüşündən götürən Şərqdir. Bunlar təməlində fundamental fərqlərə malik iki əsas mədəniyyətdir. Biri-təməlində bugunki dunyani monoton, eynitipli gormək istəyən Qərb mədəniyyəti, digəri isə ona qarşi israrla müqavimət gostərən və təməldə rədd edən Şərq mədəniyyətidir. Qərb göz mədəniyyətinə , Şərq isə söz mədəniyyətinə aiddir. Yəni qərbli bir insan dunyanini gözləri ilə, şərqli bir insan dunyani sözləri ilə tanıyir və düşünür. Belə ki , Leonarda Da Vinçi Paragone traktinda bunu şeir və musiqi ilə müqayisə edərək birincinin üstünlüyünü sübut etməyə calışmışdir. Müsəlman alimi İbn Kuteybə hələ 9-cu əsrdə gözun qulaq uzərində üstünlüyə malik olduğunu müdafiə etmişdir.

Tarixə nəzər saldıqda xiristian mədəniyyətində oxuma-yazma qabiliyyətlərinin məhdudlaşdırılmasının rəsm və ikonaların əhəmiyyətinin artdıgını görürük. Qərb təfəkküründə görmə-baxma –gözlərə üstünlük verilməsinin təməlində qədim zamanlardan bəri sənətə və ustalara himayədarlıq kilsə və onun nümayəndəsi Vatikan dayanır . Müsəlman mədəni təcrübəsində və düşüncə tərzində görmə qabiliyyəti çilpaqlq, açıqlıq kimi başa düşüldüyü üçün bu mədəniyyətdə söz kulturü üstünlük təşkil edir.

Şərq mədəniyyəti, bir növ görüntüdən gələ biləcək mənfi halları istisna etmək üçün eşitməyə müraciət etməkdədir. Yəni Şərq mədəniyyyəti, bilmək və anlamaq üçün görmək əvəzinə, eşitməyə , dinləməyə üstunlük verir. Şərq ,qərb təfəkküründən fərqli olaraq gizlətməyə bitkinliyə meylinin əsas səbəbi, fərdin tapma-bilmə uğrunda cəhd etməsinə təşviq etməyindədir.

Elmin, mədəniyyətin ilk bəşəri dəyərlərin beşiyi olmuş Qoca Şərq e.ə.1. minilliyin I yarisinda oz əvvəlki inkişaf tempini və oncül movqeyini tədricən itirmiş Qədim Yunanistan elm və mədəniyyətin inkişafi sahəsində irəli cıxmışdir. Lakin antik sivilizasiya boş yerdə yaranmamış Qədim Şərq sivilizasiyasindan bəhrələnmişdir. Roma imperiyasının suqutu ilə bəşər tarixində misilsiz rol oynamiş antik elm və mədəniyyətdə süquta ugramişdir. Lakin imperiyalar dagilsa da onlardan miras qalmiş dəyərlər tarixin yaddaşına köçərək yenidən dirçəlmək üçün əlverişli məqam gözləmişdir. İslamla bağli olan bu sivilizasiya elmi naliyyətlərin mədəniyyətin mənəvi dəyərlərin dagilmasına, itib batmasına silinməsinə yol verməmiş onları qoruyub saxlamiş, inkişaf etdirmiş və Qərb dünyasının yeni intibahi üçün zəmin yaratmışdır. İntibah müəyyən qədim mədəniyyətin, tarixin müəyyən aralıgında sanki yenidən dirçəlməsi, oyanmasi hadisəsi, hər hansi xalqin və yaxud ona yaxın mədəniyyətə mənsub olan xalqlarin inkişafinda parlaq dövrüdür. 14 cü əsrdən Qərb intibahi deyilən dövr başlayib. Qərb mədəniyyəti formalaşib ortaya yeni düşüncə tərzi cixib. Belə ki, 17 ci əsrdən sonra qərbli dünyəvi elmlərdən bəhrələnməyə başladi. Bu zaman onlar gördülər ki,dünyəvi elmlər onlara çox kömək edir və

təbiət elmləri ilə maraqlanmağa başladılar. Artıq rasional düşüncənin onlara ziyan vurduğunu anladılar və Şərqə qarşı daha çox maraqlanmaga başladılar. Dini kitabların potensialını dərindən araşdırdılar. Hal hazır ki, dövrdə də Qərblilər Qurani Kərimi dərindən öyrənir, elmi araşdirmalar aparır. Qərb islami daha cox fəlsəfi ,elmi əsaslarla mənimsəyir. Şərqdə isə dindən camaati qorxutmaq və cəhalət ücün cox vaxtlar istifade edilir. Bütün bu yanaşmalar da düşüncə tərzinin fərqliliyindən irəli gəlir. İslam dəyərləri və mədəniyyəti Avropaya nələri bəxş etdi sualini cavablandiraraq belə izah etmək olar ki, ən əvvəl astronomiya elmində Ptolomeyin xəytaları səhihləşdirildi, Günəş tutulması , ulduz axması öz elmi şərhinə qovuşdu. Fizika elmində isə ilk dəfə optika haqqinda əsər yazildi , böyüdücü linzalar və teleskop kimi alətlərin yaranması meydana gəldi. Kimya sahəsində isə kalium, ammoniak , civə və civənin əldə olunması üsullarının ərəblər tərəfindən tapılması və tibbdə Razinin " Havi" adlı tibbi əsərinin Parisdə tibb məktəbində doqquz qiymətli əsərlərdən biri sayilması, İbn Sinanin tibb elminə bəxş etdiyi 760-dan çox dərman bəxş etməyi , gözdən mirvari suyunun cəkilməsi əməliyyatının ilk dəfə Əl Müəssin adli şəxsin həyata keçirməyi bunlarin bir sübutudur.( Xəlilov, 2002;201) Bəli Şərq daim başlanğicdir, günəşdir, işıqdır. Göründüyü kimi Şərq daima Qərb sivilizasiyasina , mədəniyyətinə hər zaman təsir edib və istər elmi , istərsə də dini yolla Qərbə daim inteqrasiya olunub. Mədəniyyətlərin və sivilizasiyalarin bir – birinə belə təsiri onlarin arasinda qarşılıqlı əlaqələrin möhkəmlənməsinə səbəb olmuşdur.

Şərq və Qərbin ortaq və oxşar cəhətlərindən, əlaqələrindən, düşüncə tərzlərindən danişarkən və nəzər salarkən bu anlayışların qeyri müəyyənliyi ilə qarşılaşırıq. N.Y.Danilevski yazırdı: "Qərb və Şərq, Avropa və Asiya bizim ağlımızda Qərb, Avropa irəliləmə yenilənmə anlayışı Şərq, Asiya isə durğunluq yerində saymaq başa düşülür".(Əliyev,2020;41) Beləliklə, Danilevski Şərq və Qərb anlayışlarının coğrafi mənasınada narazılığını bildirir. Çünki müxtəlif mədəniyyətlərin fərqliliklərindən deyil, onların bir-birinə bənzərsizliyindən danışmaq olar. Bu fikirləri şərqşünas alim T. P. Qriqoryeva da təsdiqləyir ki," müxtəlif regionların mədəniyyətləri bir-birini təkrarlamır, tamamlayır, Şərqin və Qərbin bərabərhüquqlu qarşılıqlı təsiri isə vahid mədəniyyətin uzunömürlüllüyünə zəmanət verir"

**Sonuc**

Şərq və Qərb mövzusu müasir cəmiyyətin bu dəyərlər nisbətində dəyişən mövqeyi bu günün əsas problemlərindən biridir. Və bir problem kimi fəlsəfi əhəmiyyət kəsb edən bu iki düşüncə tərzi və mədəniyyət formaları arasında münasibətin öyrənilməsidir. Hələ XX əsrin əvvələrindən bir sıra yazıçı, alim və mütəfəkkirlər Şərq və Qərb düşüncə tərzlərindəki müqayisəsini təhlil edərək öyrənməyə çalışmış, XX əsrin 30-cu illərindən isə Şərq və Qərb renasansı arasında mövcud olan oxşar və fərqlı məqamların müəyyənləşdirilməsi istiqamətində bir çox araşdırılmalar aparılmışdır. Beləki, Şərq və Qərb mədəniyyət sistemləri arasında kifayət qədər oxşar və fərqli cəhətlər vardir.Çünki, Şərq və Qərb mədəniyyət sıstemləri biri - birinə qarşı düran, yaxud elə bir fərqi olmayan sistemlər deyildir. Qərb mədəniyyəti myəyyən mədəni - tarixi zərurət üzündən şərq mədəniyyətindən doğan, bütün yer üzünün mədəniyyət sisteminin yaranmasında ortaya çıxmiş boşluğu doldurmaq uçün fəaliyyətdə olan bir dünyagörüşlü mədəniyyət sistemidir. Şərq və qərb mədəniyyət sistemləri arasındakıı münasibətləri aydın təsəvvür etmək üçün ən əvvəl şərq və qərbin, yer üzünün, tarixi proseslərin mahiyyətini konkretləşdirməyə ehtiyac vardır.Məqalədə bu iki sistemin mədəniyyət tarixi, yaranması, ədəbi-bədii əlaqələrindən bəhs edilir.

**Kaynaqca**

S.Xəlilov. Şərq və Qərb umumbəşəri ideala doğru. Fəlsəfi etüdlər. Bakı. Azərbaycan Universiteti. 2004 . 620 səh.

M.Fətəli Axundov. Şərq və Qərbin vəhdəti problemi. http//genderi.org>6-m-f-axundov.

C. Cabbarlı. Şərq və Qərb. Millilik və Müasirlik.6-7 səh

A.İmanquliyeva. Gübran Xəlil Gübran. Bakı. Elm. 2002. 120 səh.

K.Bünyadzadə. Şərq və Qərb. İlahi vəhdətdən keçən özünüdərk. Bakı. 2006. 242 səh.

S. Xəlilov. Şərq ruhunun Qərb həyatı. Bakı. 2002. 380 səh.

Ə. Əliyev. Qərb və Şərq mədəniyyətləri sistemində xristian və islam münasibətləri .Respublika qəzeti. 2020. 26 yanvar №16. səh.3

Seyyid Muctəba Muşəvi lari. İslam və Qərb mədəniyyəti. Bakı. 2004

Səlahəddin Xəlilov. Şərq zehniyyəti: mənəviyyatın prioritetliyi. Bakı,"Zərdabi LTD" MMC, 2016. 512 səh.

İ.V.Höte."Şərq-Qərb divanı" Bakı,2019. 208 səh.

K.Q.Yunq. Şərq təfəkkürü ilə Qərb təfəkkürünün fərqi

A. Düma. Qafqaz səfəri. Qanun nəşriyyatı.Bakı, 2014,192 səh. Fransız və ingilis dilindən tərcümə. Q. Paşayev, H. Abbasov.

A. Şükürov. Şərq fəlsəfəsi və filosovları. Bakı 2005, 668 səh.